# Operamızın «Koroğlu» abidəsi

*"Koroğlu" operası musiqi və opera sənətimizin mükəmməl bir abidəsidir ki, o, nəsillər boyu yaşayacaqdır*

**S.Vurğun**



Bizlərdən hər birimiz dünyanı duymağa və özümüzü dərk etməyə başlayandan bəri xalq qəhrəmanımız Koroğlu barədə nağmələri, hikmətli sözləri, rəvayətləri və dastanları dönə-dönə eşitmişik, indi də eşidirik.

İş elə gətirib ki, türkdilli xalqlardan 12-si, irandilli xalqlardan 3-ü, Orta Asiya ərəbləri, Qafqaz xalqlarından gürcülər, ermənilər və abxazlar Koroğlunu özlərinin dastan qəhrəmanı hesab edirlər. Ancaq müxtəlif ölkələrin görkəmli alimlərinin gəldiyi yekdil rəy belədir ki, "Koroğlu" eposunun əsası, nüvəsi Cənubi Azərbaycanda yaranmışdır. Buna səbəb isə XVI əsrin ikinci və XVII əsrin birinci yarısında Azərbaycan və Kiçik Asiya (Türkiyə) ərazisində baş vermiş və cəlalilər hərakatı adı ilə tanınmış kəndli üsyanları səbəb olmuşdur. Sonradan Koroğlu adı ilə söyləmələr tədricən qonşu ölkələrə də yayılmış, hər xalq bunları öz bədii zövqünə və folklor ənənələrinə uyğun bir şəkildə izləyərək öz Koroğlusunu yaratmışdır. Qafqaz xalqlarının "Koroğlu"ları isə tamamilə Azərbaycan dastanlarının təsiri altında qalmaqdadır. Ancaq Orta Asiya xalqları, xüsusilə də özbəklər "Koroğlu" dastanlarını genişləndirmiş və möhtəşəm səviyyəyə çatdırmışlar.

Yaradıcılıq yolu xalq mədəniyyəti və xalq yaradıcılığı ilə ayrılmaz tellərlə bağlı olan Azərbaycan musiqi mədəniyyətinin kamil bilicisi Üzeyir Hacıbəyov xalq musiqisi ruhunda yazdığı "Koroğlu" operasında da xalq həyatını, xalqın öz azadlıq və səadəti uğrunda apardığı qəhrəmanlıq mübarizəsini geniş və parlaq şəkildə təsvir etmişdir.

Bu monumental inqilabi xalq epopeyası aşıq motivləri əsasında yazılmış, Azərbaycan kəndlisinin keçmişdə (XVI-XVII əsrlər) apardığı milli azadlıq mübarizəsinə həsr edilmişdir.

"Koroğlu" operası Üzeyir Hacıbəyov yaradıcılığının ən yüksək zirvəsidir. Ölməz xalq dastanlarından, xalq musiqisindən bəhrələnmiş bu əsər bəstəkarın çoxillik yaradıcılıq axtarışlarının nəticəsidir.

"Koroğlu" operası sözün əsl mənasında mili əsərdir, xalq yaradıcılığının canlı surətdə coşduğu bir əsərdir. Bu operanın musiqisində istedadlı və güclü xalqın hərarətli nəfəsi hiss edilir.

"Koroğlu" operasını yazmazdan əvvəl bəstəkar çətin yaradıcılıq yolu keçmişdir. Bunun üçün o, xalq musiqi incəsənətini, rus və qərb klassik musiqisini dərindən öyrənməli olmuşdur.

İlk tamaşası 30 aprel 1937-ci ildə M.F.Axundov adına Opera və Balet Teatrında qoyulan bu əsər, Ü.Hacıbəyovun beş illik gərgin əməyinin bəhrəsidir. O, bu operanı yazmaqdan ötrü 20 ilə qədər bir müddətdə şifahi xalq dastanı "Koroğlu"nu, onun müxtəlif variantlarını dönə-dönə öyrənmiş, tədqiqatlar aparmış, məlumatlar toplamışdır. Çünki Üzeyir bəyin "Koroğlu"su onun xalqının ürəyində yaşatdığı "Koroğlu"ya layiq olmalı idi. İ.Hidayətzadənin quruluş verdiyi ilk tamaşaya bəstəkar özü dirijorluq etmişdi, ikinci tamaşada isə bəstəkarın tələbəsi Əşrəf Həsənov dirijor kürsüsü arxasında olmuşdur.




Operanın librettosu H.İsmayılov və M.S.Ordubadi tərəfindən məşhur aşıq nağılları əsasında tərtib edilmişdir. İlk tamaşada Koroğlu rolunu Bülbül, Nigar rolunu G.İskəndərova, Həsən xan rolunu isə M.Bağırov ifa etmişdir.

Bülbüldən sonra 70 il ərzində Koroğlu rolunun müxtəlif səhnələrdə müxtəlif ifaçıları olmuşdur: Yaqub Rzayev, Şirzad Hüseynov, A.A.Drozdov (40-60-cı illər), İbrahim Cəfərov (60-cı illər), Adil Məlikov (60-70-cı illər), Hüseyn Əliyev (70-ci illər), Xanlar Haqverdiyev (Türkmənistan səhnəsində), Lütfiyar İmanov, Nemət Sinhəbibi Qaracayev (Özbəksəh nəsində) və b.

Operanın rəssamı R.Mustafayevin tərtibatı quruluşla üzvi surətdə bağlı idi.

Belə ki, I pərdədə kəndlilər özlərinin ağır həyat şəraitini müzakirə edir, Alı kişinin kor olmasından sonra oğlu Rövşən kəndliləri üsyana çağırır.

II pərdədə xanın həyətindəki təntənə səhnələri məharətlə verilmişdir.

III pərdə Çənlibel qalasında baş verir. Burada qonşu kəndlərdən olan kəndlilər də yavaş-yavaş Koroğlunun dəlilərinin yanına gəlirlər və Həmzə bəyin gəlməsilə konflikt başlanır.

IV pərdədə hadisələr surətlə baş verir, qəhrəmanın və xalqın zülm və ədalətsizlik üçün qisas aldıqları səhnələr göstərilir. Məhəbbət və dostluq, zülm və ədalətsizlik üzərində qələbə çalır.

Uzaq keçmişdə baş vermiş kəndlilər üsyanının əzəmətini musiqidə qüdrətlə təcəssüm etdirən "Koroğlu" operasında nikbinlik ruhu, azadlıq pafosu canlanır. Xor və rəqs səhnələrində xalq kütlələri məğlubedilməz nəhəng qüvvə kimi təsvir edilmişdir. Musiqisi uvertüra ilə başlayan bu operada mübarizəyə çağırış, hünər və qələbə təntənəsi aydın duyulur.

Koroğlu özü aşıqdır və onun dastanı aşıqlar tərəfindən oxunur. Buna görə də operada əsas stil - aşıq stilidir. Bu, xüsusilə III və IV pərdələrdə, Koroğlu rolunda hiss edilir. Muğamatdan isə başlıca olaraq xanın və onun saray adamlarının xarakteristikası üçün istifadə edilmişdir.

Üzeyir bəy məhz "Koroğlu" operasında ilk dəfə olaraq simfonik orkestrin tərkibinə mili çalğı alətlərimiz: tar, kamança, zurna, balaban, dəf əlavə edərək, operanın milliliyini daha da nəzərə çarpdırmışdır.

Bildiyimiz kimi, Ü.Hacıbəyovun milli musiqi ənənələri əsasında yaratdığı "Koroğlu" operası Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında mühüm mərhələ oldu.

1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə epik qəhrəmanlıq səciyyəli bu operanın təntənəli nümayişi olmuş, qeyrilərindən fərqli olaraq tamaşa bir dəfə yox, üç dəfə göstərilmiş, o dövrün yüksək mükafatına - Stalin mükafatına layiq görülmüşdür.

Tamaşadan sonra Ü.Hacıbəyov dörd saat ərzində İ.V.Stalinlə mili operanın perspektivləri, əsərin ideya-mənavi amilləri barədə söhbət etmişdir. Stalinin tövsiyyəsi ilə Ü.-Hacıbəyov əsərin finalında birqədər dəyişiklik etmiş, onun daha təsirli alınmasına nail olmuşdur.

Bu müvəffəqiyyətdən sonra demək olar ki, bütün Moskva qəzetləri öz səhifələrində "Koroğlu" operasının möhtəşəm uğurundan söhbət açırdı. Belə ki, "Pravda" qəzeti "Koroğlu" operasının böyük müvəffəqiyyəti" adlı məqaləsində yazırdı: "gMoskvada keçirilən Azərbaycan dekadası günləri çərçivəsində 14 noyabrda SSRİ-nin Böyük Teatrının səhnəsində Azərbaycan SSRİ xalq artisti Üzeyir Hacıbəyovun "Koroğlu" operasının 3-cü dəfə göstərilən sonuncu tamaşası olmuşdur. Üzeyir bəyin bəstəkarlıq məharəti bu dəfə də böyük alqışlara səbəb olmuşdur. Dirijor Əşrəf Həsənovun rəhbərlik etdiyi simfonik orkestr uvertüranı bitirən kimi zalda əyləşən tamaşaçıların alqış səsləri hər yana yayıldı. Böyük müvəffəqiyyətlə keçən bu opera sürəkli alqışlarla qarşılanmışdır və tamaşaçılarda böyük rüh yüksəkliyi yaratmışdır. M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrının sonuncu tamaşasında İ.V.Stalin, V.M.Molotov, K.E.Voroşilov, V.U.Çubar, N.İ.Yejov, M.A.Bağırov da tamaşaçılar arasında olmuşlarg "

Dekadadan sonra bəstəkar operanın V pərdəsini də əlavə edərək, III variantını işləmiş və əsər 1943-cü ildə Bakıda rus dilində səhnəyə qoyulmuşdur.

Həmin günlər (3-6 oktyabr) Bakı küçələrində asılmış bir elan hamının diqqətini cəlb edirdi. M.F.Axundov adına Opera və Balet Teatrında SSRİ xalq artisti Üzeyir Hacıbəyovun 5 pərdəli "Koroğlu" operası rus dilində (Z.Q.Zalçmanın tərcüməsində) səhnəyə qoyulurdu. Operanın bədii təribatçısı İ.Hidayətzadə, rəssamı A.F.Filippov, dirijoru isə Niyazi olmuşdur. Rolları ifa edirdilər: Rövşən (Koroğlu)- A.A.Drozdov, Həsənxan-K.L.Knijnikov, Nigar-Knarik Qriqoryan, İbrahim xan-V.A.Nikolski, Alı- M.A.Feldşteyn, Ehsan paşa- S.E.Nevedov və b.



1941-ci ildə Üzeyir bəy "Koroğlu" operasında qazandığı müvəffəqiyyətə görə Stalin mükafatına layiq görülür. Mükafatlanma mərasimindəki çıxışında Üzeyir bəy demişdir: "Mənə "Koroğlu" operası üçün mükafat verilmişdir. Bu opera uzun illər boyunca qızğın işin məhsuludur. Mən bu əsəri yaradarkən xalq ictimaiyyəti xəzinəsindən, böyük qəhrəman haqqında gözəl dastanlardan, Koroğlu kimi gözəl qəhrəman yetişdirmiş xalqa onun bəslədiyi böyük məhəbbətdən ilham almışam. Mən "Koroğlu" operasını yaradarkən həmişə hökumətin mənim qayğıma qaldıqlarını, yaradıcılığımın qayğısına qaldıqlarını hiss edirdim. Bu qayğı və diqqət hökumətimin qəbul etdiyi qərarda özünü xüsusilə göstərir. Yüksək mükafatdan son dərəcə şadam. Bu mükafat yeni əsərlər üzərində daha qızğın işləmək vəzifəsini üzərimə qoyurg".

Göründüyü kimi "Koroğlu" operasının yaranmasından artıq 86 ilədək bir vaxt keçir. 86 ildirki, bu opera hələ də Azərbaycan Opera və Balet Teatrının səhnəsindən düşməyib, ruhumuzu oxşayır.

Yarandığı ilk gündən Şərq xalqlarının opera yaradıcılığının inkişafında böyük rol oynayan bu əsər, əlbəttə ki, bundan sonra da opera səhnəsində şah əsər olaraq qalacaqdır.

**Təranə HƏSƏNOVA,**
**Üzeyir Hacıbəylinin ev muzeyinin kicik elmi işçisi**